ISSN: 3137-0586
Journal *of* PHILOLOGICAL STUDIES International Scientific Journal. 2026 / Volume: 1 Issue: 1 / 5-16 e-ISSN: 3137-0594

DOI: https://doi.org/10.36719/3137-0586/1/5-16

Təyyar Salamoğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
tayyarsalamoğlu@gmail.com

Səməd Vurğun şeirinin tarixiliyi və təkamül mərhələləri

Xülasə

Məqalədə S.Vurğunun yaradıcılığı tarixilik prinsipi ilə araşdırılır. Tarixilik S.Vurğun yaradıcılığının obyektiv mənzərəsini yaratmaq üşün əsas meyar hesab edilir. Müəllif bu fikirdədir ki, tarixilik prinsipi şairin yaradıcılıq yolunu dörd mərhələdə öyrənilməsini tələb edir. Bu mərhələ təsnifatı ilk dəfə təqdim edilir.

Birinci mərhələdə S.Vurğun şeirinin milli ədəbi ənənənin davamı kimi öyrənilməsi fikri əsaslandırılır. Şairin yaradıcılığının ikinci mərhələsi kimi proletkultçuluq illəri fərqləndirilir. Bu mərhələnin prinsipcə 1928-31-ci illəri cevrələdiyi önə çəkilir. 1932-1945-ci illəri üçüncü mərhələ kimi fərqləndirməyə imkan verən ictimai-siyasi hadisələtin mahiyyəti izah edilir. Şeirlərinin əsas ideya-estetik xüsusiyyətləri ümumiləşdirilir, mərhələyə məxsus əlamətdar cəhətlər üzərində dayanılır.

Məqalə müəllifi 46-cı il "Qərarları"ndan sonrakı illəri dördüncü və sənətkarın yaradıcılığının ən ziddiyyətli mərhələsi hesab edir.

Məqalədə mərhələdən mərhələyə keçidin səbəbləri izah edilir. Birinci mərhələdən fərqli mövqeyin ifadəsi olan proletkultçuluq illərində S.Vurğun şeiri əks idealların çarpışması kontekstində araşdırılır. Şairi romantik inikas üsulundan imtinaya məcbur edən səbəblər üzərində dayanılır, "dialektik materialist" olmaq cəhdlərinin yaradıcılığına mənfi təsirləri izah edilir.

Rejimin ədəbiyyat siyasətindəki nisbi loyallaşma ilə bağlı olaraq üçüncü mərhələdə S.Vurğun şeirində əsaslı keyfiyyət dəyişmələrinin baş verməsi önə çəkilir. Tarixi mövzulara, folklor yaddaşına ardıcıl müraciətləri şairin yaradıcılığında milliliyin forma dairəsindən çıxıb, ideya-məzmun konteksində yer almasını şərtləndirən amillər kimi şərh edilir.

Mərhələlərin ideya-estetik xüsusiyyətləri müqayisəli şəkildə araşdırılır və S.Vurğun şeirində iki xətt- milli və siyasi-ideoloji xətt fərqləndirilir. Bu fərqləri şərtləndirən içtimai-siyasi amillərin şairin yaradıcılığındakı izləri ümumiləşdirilir.

Müqavimət tendensiyasının estetik ifadəsi məsələsi üzərində dayanılır. Bu estetik "Aygün"də və "Komsomol poeması"nın son variantında sosrealizmə ifadə sovet dövrü ədəbiyyatımızda yeni keyfiyyət mərhələsinin ərəfəsi kimi dəyərləndirilir.

Açar sözlər: *mərhələ, qərar, proletkultçuluq, poetik təfəkkür, romahtik, ədəbiyyatşünaslıq*

Tayyar Salamoglu
Azerbaijan State Pedagogical University
Doctor of Philology
tayyarsalamoglu@gmail.com

The Historicity and Stages of Evolution of Samad Vurgun's Poetry

Abstract

The article examines S. Vurgun's creativity based on the principle of historicity. Historicity is considered the main criterion for creating an objective picture of S. Vurgun's creativity. The author believes that the principle of historicity requires studying the poet's creative path in four stages. This classification of stages is presented for the first time.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

ISSN: 3137-0586
e-ISSN: 3137-0594

At the first stage, the idea of studying S. Vurgun's poetry as a continuation of the national literary tradition is substantiated. The years of proletarian culture are distinguished as the second stage of the poet's creativity. It is emphasized that this stage, in principle, encompasses the years 1928-31. The essence of the socio-political events that allow distinguishing the years 1932-1945 as the third stage is explained. The main ideological and aesthetic features of his poems are summarized, and the significant features of the stage are emphasized.

The author of the article considers the years after the "Decisions" of 1946 to be the fourth and most contradictory stage of the artist's creativity.

The article explains the reasons for the transition from one stage to another. The poetry of S. Vurgun during the years of proletarian culture, which was an expression of a different position from the first stage, is examined in the context of the clash of opposing ideals. The reasons that forced the poet to abandon the method of romantic inflection are discussed, and the negative effects of attempts to become a "dialectical materialist" on his creativity are explained.

In connection with the relative loyalty in the literary policy of the regime, the occurrence of fundamental qualitative changes in S. Vurgun's poetry in the third stage is emphasized. His consistent appeals to historical themes and folklore memory are interpreted as factors that condition the poet's creativity to move beyond the circle of form and take its place in the context of ideas and content.

The ideological and aesthetic characteristics of the stages are examined comparatively and two lines are distinguished in S. Vurgun's poetry - the national and the political-ideological line. The traces of the socio-political factors that condition these differences in the poet's creativity are summarized.

In "Aygun" and the final version of "Komsomol Poem", the issue of the aesthetic expression of the tendency of resistance to socialist realism is emphasized. This aesthetic expression is evaluated as the eve of a new qualitative stage in our Soviet-era literature.

Keywords: *stage, decision, proletarian culture, poetic thinking, romance, literary criticism*

Giriş

Səməd Vurğun çox ağır bir zamanda yaşamışdır. Həm də son əsrlərin heç bir dövrü və mərhələsi ilə müqayisə olunmayacaq qədər ağır bir zamanda. Odur ki, şairin yaradıcılığına obyektiv qiymət vermək üçün zamanın ədəbi-mədəni hərəkatını ictimai-siyasi proseslərin cərəyanı kontekstində qiymətləndirmək zəruri amil kimi çıxış edir. Bu o deməkdir ki, şairin irsi tarixilik kontekstində öyrənilməlidir. Bu nöqteyi-nəzərdən siyasi mühitin ədəbi-mədəni düşüncəyə təsirinin incəliklərini təsəvvür etmək lazımdır. Fikrimizcə, ədəbiyyatşünaslığımızın sovet dövrü ədəbiyyatını mərhələlərə ayırması, hər mərhələyə məxsus estetik xüsusiyyətləri, bu xüsusiyyətlərin ictimai-siyasi proseslərlə şərtlənən cəhətlərini araşdırmaq təşəbbüslərini tarixiliyin inkişaf tendensiyalarının sənətkarların yaradıcılığına təsirinin obyektiv mənzərəsini aşkarlamaq meyli kimi qiymətləndirmək lazımdır. Müstəqillik dövrü ədəbiyyatşünaslığında doğru vurğulanır ki, "XX əsrdə, xüsusən sovet dönəmində yaşamış sənətkarların hər birinin əsərləri və xidmətləri dərindən, obyektiv tarixi meyar və prinsiplərlə öyrənilməli, layiqincə dəyərləndirilməlidir. Tarixin, zamanın tələblərini, sənətkarın yaşadığı dövrün siyasi mənzərəsini, onun boya-başa catdığı sosial mühitin təsirlərini nəzərə almadan bir şairi sovet quruluşunu, hakim partiyanı tərənnüm etdiyinə, digərini məşhur siyasi xadimə poema yazdığına görə ittihamlamaq səhvdir, neobolşevik düşüncədir" (Əsgərli, 2006, s. 243).

Tədqiqat

Ədəbiyyatşünaslığımızda sovet dövrü Azərbaycan ədəbiyyatı əsasən iki tarixi mərhələyə bölünərək öyrənilir. Keçən əsrin 50-ci illərinin sonu (bəzi hallarda 50-ci illərin ortaları) ədəbiyyatımızın yeni keyfiyyət mərhələsinə keçidinin başlanğıcı sayılır. Ümumiyyətlə götürəndə 50-ci illərin ortalarına qədər birinci mərhələ, 50-ci illərin sonu və 60-80-ci illər ikinci mərhələ kimi qəbul edilir və araşdırılır. S.Vurğun yaradıcılığı birinci mərhələyə daxil olur. Birinci mərhələdə ədəbi-tarixi prosesin hərəkətinə sosrealizmin estetik çərçivəsi, ikinci mərhələdə isə sosrealizmin estetik prinsiplərinin sökülüb dağılması, yeni sənət prinsiplərinin ortaya çıxması kontekstində yanaşmalar ədəbiyyatşünaslığın əsas elmi-nəzəri, müəyyən mənada, həm də metodoloji meyarına çevrilir.

ISSN: 3137-0586
e-ISSN: 3137-0594

Bununla belə, düşünürük ki, sözü gedən I mərhələnin ədəbiyyatını bir neçə yarımmərhələyə ayırmağa ehtiyac var. Fikrimizcə, birinci yarımmərhələyə 1928-ci ilə qədərki, ikinci yarımmərhələyə 1928-31/32-ci illəri əhatə edən zaman kəsikləri daxildir. Üçüncü yarımmərhələ 1932-ci ildən 1946-cı ilə qədərki zamanı, dördüncü yarımmərhələ isə 1946-cı ildən 50-ci illərin ortalarına qədərki zaman kəsiyini əhatə edir.

Birinci yarımmərhələdə ədəbiyyatda aparıcı istiqaməti milli və dünya ədəbiyyatından gələn ənənələrin davamı təşkil edir.

İkinci yarımmərhələ proletkultçuluğun hakim olduğu mərhələdir. Ədəbiyyatı bütövlükdə proletar platformasına keçirmək və ona tam bir şəkildə təbliği funksiya aşılamaq rejimin əsas tələbi kimi meydana çıxır. Tənqid istər yaşlı nəslin, istərsə də proletar ədəbiyyatı nümayəndələrinin yaradıcılığını dialektik materializm metodu prizmasından, marksist-leninçi platformadan dəyərləndirir.

Üçüncü yarımmərhələdə ədəbiyyatın ancaq proletariat qüvvələri tərəfindən yaranacağı, ədəbi ənənədən imtina kimi məsələlərə tənqidi baxış güclənir. Ədəbiyyatın proletar platforması kimi məhdud bir dairədən çıxıb, bütövlükdə şura-sovet ədəbiyyatı platformasına keçidinə şərait yaradır. "Dialektik materializm"dən fərqli olaraq "sosialist realizmi"nin nəzəri postulatlarında millilik forma məsələsi şəklində olsa da yer alır. Şura-sovet ədəbiyyatı "məzmunca sosialist, formaca milli ədəbiyyat" kimi səciyyələndirilir. Bu cəhət estetik düşüncənin manevr imkanlarını genişləndirir. Ədəbiyyat proletariatın- ancaq bir sinfin inhisarında qalmaq kimi məhdud dairədən çıxır, bütün sinif və sosial təbəqələr ədəbi prosesin hərəkətində iştirak imkanı qazanır.

Bütün bu ümumiləşdirdiyimiz cəhətlər 1946-cı ilə qədər davam edir. ÜİK (b)P MK-nın ədəbiyyat və incəsənət haqqında 1946-1948-ci illərdə verilmiş dörd qərarı ("Zvezda" və "Leninqrad" jurnalları haqqında 14 avqust 1946-cı il, "Dram teatrlarının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında 26 avqust 1946-cı il, "Böyük həyat" kinofilmi haqqında 4 sentyabr 1946-cı il, B.Muradelinin "Böyük dostluq" operası haqqında 10 fevral 1948-ci il qərarları) rejimin ədəbiyyat siyasətini büsbütün sərtləşdirir (ÜİK (b)P MK-nın ədəbiyyat və incəsənət haqqında qərarları,1950) və onu tamamilə ideoloji müstəviyə keçirməyi qəti tələb kimi qoyur. İ.V.Stalinin 1932-ci ildəki nitqində (Rzayev, 2010, s. 49-55) və Ümumittifaq yazıçılarının 1934-cü ildə keçirilən qurultayında sənətkarlara verilən nisbi "nəfəs genliyi" (repressiyanın tüğyanı şəraitində olsa belə) onların əlindən alınır.

Fikrimizcə, 1946-48-ci il qərarları ədəbiyyatı tamamilə siyasi rejimin nəzarəti altına almağın əməli ifadəsi, pilyuralizmin son nöqtəsinə qədər aradan qaldırılmasına hesablanır.

Bu bölgü nə qədər obyektivdir, nə qədər elmidir? Sosrealizm çevrəsində olan ədəbiyyatımızın obyektiv mənzərəsini nə qədər özündə ehtiva edə bilir?

Düşünürük ki, bu suallara elmi cavabın variantlarından biri S.Vurğun şeirinin keçdiyi yolu bu mərhələ təsnifatı əsasında nəzərdən keçirmək olar. Fikrimizcə, şairin yaradıcılıq yolu bu təsnifat qəlibinə çox rahat daxil olur. Həmin "rahatlıq" S.Vurğun şeirinin obyektiv mənzərəsini də yaratmağın meyarına çevrilir.

Öncəliklə belə bir suala cavab vermək lazım gəlir: Sənət yolu çox ağır bir zamana düşən S.Vurğun taleli sənətkardır, yoxsa talesiz? Bəlkə də sualın özündə onun cavabı da gizlənmişdir. Bununla belə, birmənalı cavab vermək çətindir. Ancaq ədəbiyyatşünaslığımızda suala birmənalı cavab kimi səslənən fikirlər var. Məsələn, Ş.Alışanlı yazır ki, "S.Vurğun ilk növbədə böyük milli şairdir. O, nadir tarixi şəxsiyyətlərdəndir ki, qazandığı böyük xalq məhəbbəti və dünya şöhrəti onsuz yaşadığımız yarım əsrin heç bir dönəmində azalmamışdır" (Alışanlı, 2008, s. 31). Bu fikir şairi taleli sənətkar kimi təqdim etməyə hesablanıb. Ancaq düşünürük ki, sənətkarın sənətkar taleyində kifayət qədər talesizliklər də yer alıb. Bu mülahizənin məntiqi odur ki, şairin yaradıcılıq yolunu yalnız "taleli sənətkar" müstəvisində araşdırmaq və dəyərləndirmək metodoloji cəhətdən özünü doğrulda bilməz və doğrultmur. Nə üçün?

Birinci ondan başlayaq ki, S. Vurğun ilk yaradıcılıq təcrübələrindən az sonra imtina etmək məcburiyyətində qalıb. Onları "Ölən şeirlərim" adlandırıb. Ədəbiyyatşünaslıq indiyə qədər şairin bu jestini yaradıcılıq yolunun irəliyə doğru hərəkətini şərtləndirən amil kimi dəyərləndirib; Şəxsi duyğularının, fərdi yaşantılarının bədii ifadəsindən sosial-siyasi həyatı əks etdirməyə keçidi şərtləndirən əlamətdar hadisə sayıb. Doğrudanmı, S. Vurğun şeirinin təkamülü və yaşarlığı ilk qələm

ISSN: 3137-0586
e-ISSN: 3137-0594

təcrübələrindən imtinaya, "şeirlərini süarlara çevirdiyi" illərdə yazdığı şeirlərə söykənir? Yəni doğrudanmı, ədəbiyyatşünaslığın qiymətləndirdiyi kimi, "nəfəsləri benzin və kükürd qoxuyan milyonların şairiyəm" deyə raport verdiyi "Raport" tipli şeirlərlə "Azərbaycan" şeiri eyni bir mərhələnin nümunələridir? Doğrudanmı, "Azərbaycan" şeirinin yaranma yolu "Raport" tipli şeirlərdən keçir?

Fikrimizcə, indiki halda ədəbiyyatşünaslığın bu mövqeyi (Nəbiyev, 2008, s. 8)

tənqidə dözməyən kimi səslənir. Biz düşünürük ki, bu əsərlər S. Vurğun şeirinin bir-birini inkar edən qütblərinə, fərqli mərhələlərinə aiddir. Xüsusi vurğulamaq istəyirik ki, "Azərbaycan" şeirinin və hətta, "Azərbaycannamə"sinin- "Azərbaycan" tarixi-poemasının yaranması bədii varislik əlaqəsi mənasında "Ölən şeirlərim" adlandırdığı şeirlərlə daha çox bağlanır.

S. Vurğunun "Ölən şeirlərim"də imtina etdiyi şeirlər onun yaradıcılığının ilk nümunələri olmaqla bir sıra əlamətdar cəhətlərlə səciyyələnir.

Birincisi, bu şeirlərdə S. Vurğunun poetik təfəkküründün romantik təbiəti özünü aşkar büruzə verir. Elə bir poetik təfəkkür tipindən söhbət gedir ki, yaşadığı zamanda ona qarşı müharibə elan olunsa da, S.Vurğun prinsipcə o tərzdən heç vaxt tam şəkildə uzaqlaşa bilməyib. Zaman-zaman onun fərdi üslubunun ahəngində həlledici rol oynayan bu inikas üsulu uğrunda mübarizə aparmalı olub.

İkincisi, bu şeirlər şairin real həyati yaşantılarının bədii ifadəsidir.

Üçüncüsü, bu şeirlərdə milli və türk romantik şeirinin bəzi əlamətdar cəhətləri özünü göstərir. Aşıq şeirinə, Azərbaycan və türk romantik şeirinə bağlılıq S.Vurğunun ilk qələm təcrübələrində aşkar sezilən cəhətlərdir. O da aşkar sezilir ki, özündən əvvəlki ənənədə paralel yer tutan, "izm"lərdən məhz romantizmə meyli, Sabir şeirinə yox, Cavid şeirinə meyli şairin poetik təfəkküründün romantik təbiəti, fitri istedadının xarakteri ilə şərtlənir.

"Şikəstəyə məktub", "Sızıltılarım", "Tərlanım", "Bu gün məni lap boğurdu hicran", "Şuşa", "Zeynal", "Çiçək", "Dan yıldızı", "Bir qətrə yaş", "Dağlar", "Ana", "Bizim dağların", "Salyan gözəli", "Bəlkə", "Ona", "Nə vaxt güləcəyəm?", "Ellər gəldi", "İllər, qərinələr keçirsə aləm ", "Dilcan dərəsi" bu tipli şeirlərdəndir. Xüsusi vurğulamağa ehtiyac var ki, sənətkarlıq baxımından bütün zəif cəhətləri ilə bərabər bu şeirlərin ədəbi ənənəyə sıx bağlılığını və şairin poetik təfəkküründün mahiyyətindən doğduğunu ədəbiyyatşünaslığımız da etiraf etmişdir. Sözü gedən şeirlər əsasən 1926-27-ci illərin məhsullarıdır. Məhz zamanın kəskin və amansız təzyiqləri S.Vurğunu öz yaradıcılıq yoluna inkarçı mövqedən baxmağa, ilk şeirlərini "o köhnə qanın və onu yaradan köhnə romantikanın" məhsulu elan etməyə məcbur edir. "Tarixə bolşevik yazılsın adım" istəyi, məramı (bəlkə belə deyək: məcburiyyəti) S. Vurğunu əvvəlki sənət yolundan, poetik təfəkküründün tipindən, fərdi yaddaş manerasından uzaqlaşdırıb yeni sənət platformasına – proletar platformasına götürür. Bu proses bir sistem halında 28-ci ildən başlayır. S. Vurğunun proletar platformasına bir qədər gec qoşulduğu ədəbiyyatşünaslıqda vurğulanan məsələdir. Proses ümumittifaq və eyni zamanda milli ədəbi prosesdə RK(b)P MK-nın "Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında" 18 iyun 1925-ci il tarixli Qətnaməsindən xüsusi təkan alaraq başlamışdır. Bu qərarda ədəbi-mədəni sahədə də proletariata avanqard rolu verilirdi, bu rolun gerçəkləşməsi üçün, proletariatın hegemonluq hüququ qazanması üçün dəstək verilməsi xüsusi tələb kimi vurğulanırdı.

Şairin zamanın şeirinə imza atmaqdan başqa çarəsi qalmır. 1928-ci ildən başlayan bu proses 29-31-ci illərdə intensiv şəkil alır. Şair proletar ədəbiyyatı yoluna qədəm qoyur. S.Vurğun da yeni ədəbiyyatın yaradıcılıq metodu kimi müəyyənləşən (yaxud müəyyənləşdiyi təsəvvür edilən) dialektik materializmlə əsərlər yazmağa başlayır.

Şeirlərinin analitik oxusu aydın göstərir ki, şairin 1928-1931-ci illər arasında yazılmış "Şeirim", "İşçi", "Ey uzaq göylərin...", "Ömrün pərişan günləri", "İngilis", "Uzaqlara doğru", "Hərəkət", "Kapital", "Son söz", "Məktub", "Mən hazıram", "Mən də bir əsgər kimi", "Raport", "Ölən şeirlərim" əsərləri dialektik materializm adlandırılan metodun tələblərinə uyğun yazılmışdır. Adını çəkdiyimiz şeirlərin böyük çoxluğunun sərbəst vəzndə yazılması təsvir predmetinə çevirdiyi hadisələrin "bütün məzmununu, mövzularını, qavradığı materialları tamamilə dəyişməyə" (Hüseyn, 1979, s. 16) hesablanmışdır.

Əgər proletar mündəricəsi əvvəlki əsərlərində epizodlar, fraqmentlər, ayrı-ayrı detallarla işarələnirdisə, "Mən də bir əsgər kimi" (1931), "Raport" (1931), "Ölən şeirlərim" (1931) tipli

ISSN: 3137-0586
e-ISSN: 3137-0594

əsərlərdə mövzu daha əhatəli şəkildə qoyulur, proletar işinin siyasi, iqtisadi, mədəni tərəfləri bədii təsvirin mərkəzinə çəkilir. "Şeirlərimi şüarlara döndərirəm" deyən şair öz şüarlarının məzmununu cəmiyyətdə gedən proseslərə tam şəkildə uyğunlaşdırmaq və dərinləşdirmək yolunu tutur. Buraya onun ənənəvi romantik şeir üsulundan imtina edərək proletar şeiri platformasına keçidini elan etməsindən, buna görə də əvvəlki əsərlərinin onu ideya-məzmunca təmin etməməsindən, zamanın hərəkətini düzgün başa düşmədiyini, ancaq indi hər şeyi anlamağa başladığını etirafları, keçmişlə bu günün müqayisəsi, bu müqayisədə birmənalı üstünlüyün bu günə verilməsi, dünyanın iki cəbhəyə bölünməsi, kapital dünyası ilə proletariat arasında gedən çarpışmalar, bu çarpışmalarda proletariatın haqq işi uğrunda mübarizə aparması, mübarizənin miqyasının getdikcə genişlənəcəyinə və bütün dünya proletariatını əhatə edəcəyinə, proletariatın haqq işi uğrunda çarpışması, əzilənlərin istismarı və buna son qoyulacağına inam, özünün də siniflər mübarizəsinin iştirakçısı olması, bu mübarizədəki qalibiyyətin onun da xalqını xoşbəxtliyə qovuşdurduğu və qovuşduracağı haqqında "həqiqət"lər yer alır. S. Vurğun özünü də bu mübarizə prosesinin önündən gedənlərdən hiss edir və bu prosesin aktiv iştirakçısına çevriləcəyini bəyan edir. Şeirlərinə yeni həyat uğrunda mübarizədə, kapitalizm dünyasına elan olunmuş müharibədə haqlı olduğumuzu, dünyadakı siyasi proseslərin tənzimlənməsində sosializm, kommunizm ideologiyasının mütərəqqi mövqe tutmasına dair Marksdan, Engelsdən, Lenindən sitatlar salır, cərəyan edən siyasi hadisələrin mahiyyətini düzgün dərk etdiyini və bunu oxucularına çatdırmağı sənətkar borcu hesab etdiyini estetik düşüncəyə daxil edir:

Yenə dedim:
Əlimi mən də verməliyəm
İşçilərin əlinə;
Mən də daş atmalıyam
Socialist
Vətənmizin təməlinə (Vurğun, 2005, s. 109).

Bu parça “Raport” şeirindəndir və şeir 1931-ci ildə yazılmışdır. Bu şeirdən də göründüyü kimi proletar məfkurəsini ideya-estetik tərənnüm 1928-ci ildən 1931-ci il də daxil olmaqla S.Vurğun şeirində yüksələn xətlə davam edir. Bu tipli şeirləri oxuyanda S.Vurğun şeirinin artıq büsbütün proletarlaşdığını, sənətin bu istiqamətinə sanki ürəkdən qoşulması haqqında düşünmək qaçılmaz olur və ədəbiyyatşünaslığımız prosesin əsas isiqamətini və tendensiyasını da belə qəbul etmişdir. Amma əslində belə deyildir. Akademik N.Cəfərovun təbiricə desək “əlahəzrət fakt” bizi başqa bir düşüncə axarına salır. 1932-ci ildən başlayaraq S.Vurğun şeirinin ümumi pafosunda, ahəngində, ideya-estetik axarında başqa bir xətt görünməyə başlayır. 32-ci ildən başlayaraq S.Vurğun şeirində ədəbiyyatşünaslığın “sərbəst şeir təcrübələri” kimi dəyərləndirdiyi “Hərəkət”, “Raport”, “Mən də bir əsgər kimi”, “Ölən şeirlərim” tipli əsərlərində əks olunan deya-estetik ahəngi, bolşevik məramının prozaik ifadəsini görmürük. Nə üçün? Çünki ümuittifaq və təbii ki, həm də milli ədəbi-mədəni həyatda ciddi, əsaslı dəyişikliklər baş verirdi. Rejim 1925-ci il “Qətnamə”sindən (RK(b)P MK-nın…Qətnaməsi, 1925) güc alan ədəbi-mədəni siyasətini arxivə göndərir və yaxud belə də deyə bilərik ki, onun ciddi redaktəyə ehtiyacı olduğunu bütün çılpaqlığı ilə dərk edir və redaktə prosesi başlayırdı.

Bizim qəti qənaətimizə görə, 1932-ci il qərarından (ÜİK(b)P MK-nın qərarı,1932)1946-cı il “Qərarları”na (ÜİK(b)P MK-nın Qərarları, 1946) qədərki müddət bizim ədəbiyyatşünaslığımızda yeni bir yarımmərhələ kimi formalaşır. Həmin yarımmərhələnin formalaşmasında bir sıra amillər, dövlət qərarları həlledici rol oynayır.

Bu yarımmərhələdə ədəbiyyatın ancaq proletariat qüvvələri tərəfindən yaranacağı, ədəbi ənənədən imtina kimi məsələlərə tənqidi baxış formalaşır. "1932-ci il rejimin mədəni siyasətində dönüş ili olur. Aprel qərarı («Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında» 23 aprel 1932-ci il qərarı) ziyalılara münasibətdə məhdud, dar sinfi, proletar prinsipdən ümumsovet platformasında əməkdaşlığın geniş cəbhəsinə keçid kurs elan etdi" (Rzayev, 2010, s. 47).

Bu kursun genişlənməsində «Kommunist yazıçıların Siyasi Büro üzvləri ilə birlikdə 1932-ci ilin 20 oktyabrında keçirilən yığıncağında» Stalinin nitqində (Rzayev, 2010, s. 48) ədəbiyyatın ancaq proletariat qüvvələrinin yaradıcı işi olması, digər bitərəf qüvvələrə (Stalinin nitqində "bitərəf yazıçılar okeanı") ədəbi prosesin hərəkətinə qoşulmaq imkanı verilməməsinə, ədəbiyyatın yaradıcılıq metodunun mütləq mənada, «dialektik materializm» elan edilməsinə, proletar ədəbiyyatının yaradılmasında ənənədən imtinaya kəskin tənqidi münasibət yer alır, yaranacaq yeni tipli ədəbiyyatda romantik təsvirə yaşıl işıq yandırılır, «inqilabi sosialist realizmi» «bizim epoxamız üçün ədəbiyyatda əsas baş cərəyan» elan olunur (Rzayev, 2010, s. 48-55).

S.Vurğun öz yaradıcılığında ədəbiyyat sahəsindəki bu "islahatlar"dan son dərəcə səmərəli bir şəkildə bəhrələnir. Ilk növbədə, dövlətin ədəbiyyat sahəsindəki müəyyən mənada liberal siyasəti S.Vurğuna zorən dialektik materialist olmaqdan uzaqlaşmağa, özünün yaradıcılıq fitrətindən və ədəbi ənənədən qaynaqlanan romantik inikas üsuluna qayıtmağa imkan verir.

Ədəbiyyatşünaslıqda S.Vurğunun yaradıcılıq metodu ilə bağlı deyilən aşağıdakı fikrə diqqət yetirək: "Bu gün Səməd Vurğunun yaradıcılıq metodu məsələsinə yenidən qayıtmaq lazımdır. Ovçarenko vaxtı ilə H.Babayev, S.Əsədullayev və digərləri ilə mübahisə edərək onun romantik olduğunu israr edirdi. Əslində S.Vurğunun yaradıcılıq metodu konsepsiyası əsasən həyatın romantik inikası məsələlərini əhatə edirdi" (Alışanlı, 2008, s. 32). Ş.Alışanlının Ovçarenkonun mövqeyindən və təbii ki, özünün S.Vurğun yaradıcılığı üzərində müşahidələrindən güc alaraq dolayısı ilə ifadə etdiyi fikir – "S.Vurğun romantik şairdir" fikrinin bədii əsasında ən çox şairin 1932-ci il "Qərar"ından 1946-cı il "Qərarları"na qədər müddətdə yazdığı şeir və poemaları , dramları dayanır.

Əsl həqiqətdə, Stalinin nitqində, 32-ci il "Qərar"ında və "Nizamnamə"də ədəbiyyatla bağlı deyilənlər, şura ədəbiyyatını necə görmək tendensiyası ilə bağlı səslənən fikirlər S.Vurğunun sənət taleyinə həlledici təsir göstərir. Ona ilk qələm təcrübələrində özünü qabarıq surətdə göstərən romantik inikas üsuluna qayıtmağa imkan verir. Ədəbiyyatşünaslığımız S.Vurğunun nəzəri konsepsiyasında romantikaya ayrılan yerdən dönə-dönə söhbət açmadadır. Həqiqətən S.Vurğun öz çıxış və məruzələrində romantik inikasın ədəbiyyatda tutduğu yer haqqında ardıcıl şəkildə bəhs etmiş, sovet ədəbiyyatında romantik təsvirin əhəmiyyətini dönə-dönə əsaslandırmağa çalışmış, nəticədə socialist realizmində romantik üslubun yer almasına nail olmuşdur. Xüsusi vurğulamaq lazımdır ki, S.Vurğunun bu uğurda mübarizəsinin müsbət nəticələnməsində 1932-ci ildən başlayaraq dövlət səviyyəsində ədəbiyyata baxışın həlledici rolu olmuşdur. "Şura Yazıçılarının Nizamnaməsi"ndə deyilirdi: "Sosialist realizmi yaradıcılıq təşəbbüsünü təzahür etdirmək, ən müxtəlif forma, metod və janrlar seçmək üçün bədii yaradıcılıqda müstəsna imkan təmin edir" (Şura Yazıçılarının Nizamnaməsi, 1934, s. 1). Dövlətin ədəbiyyat siyasətində "müxtəlif forma, metod və janrlar seçmək üçün" yaratdığı "müstəsna imkan" və xüsusən Stalinin dilindən səslənən "Belə romantizm (Qorki romantizmi nəzərdə tutulur-T.S.) yazıçıya lazımdır. Bizi irəli aparan belə romantizm bizə lazımdır" qənaəti (Rzayev, 2010, s. 54) Vurğunun romantik inikas üsuluna bütövlükdə bağlanmasına imkan verir.

Romantik inikas üsuluna keçid S. Vurğun şeirinin mövzu dairəsini də dəyişir. 1932–1945-ci illər arasında tarixi mövzular, xalq əfsanə və rəvayətlərinə müraciət, bu istiqamətdə çoxsaylı şeir, poema və dram əsərlərinin yazılmasına təkan verir.

Proletkultçuluq dövründə keçmişə, xalqın milli yaddaş tarixinə bu cür aktiv və məhsuldar münasibət, ümumiyyətlə, hər hansı bir şəkildə müraciət faktı, demək olar ki, mümkün deyildi. Çünki partiya direktivlərində, "Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında" 25-ci il qərarında "müasir dövrün zəngin materialından istifadə" qəti göstəriş səviyyəsində həyata keçirilirdi.

Romantizmin tarixindən məlumdur ki, istər dünya, istərsə də milli romantiklərdə keçmişə maraq həmişə güclü olmuşdur. S. Vurğunun da keçmişə marağı özünün sənətkar təbiəti ilə bərabər, milli və dünya romantik şeir ənənəsindən gəlirdi.

Tarixi mövzuya, folklor mövzularına artan maraq sözü gedən yarımmərhələdə S.Vurğun şeirində xəlqiliyin, hətta deyərdik ki, milliliyin qabarıq ifadəsinə gətirib çıxarmışdı. "Nizamnamə" ədəbiyyatı "məzmunca sosialist, formaca milli" çərçivədə yaratmağı tövsiyə və tələb edərkən, biz düşünürük ki, bu yarım mərhələdə S. Vurğun şeirində millilik forma sərhədlərini aşıb keçməyə, əsərlərinin ideya-məzmun keyfiyyətinə çevrilə bilmişdir.

S. Vurğun yaradıcılığında azərbaycançılıq bir ideya xətti, leytmotiv kimi mühüm mövqeyə malikdir. Bu mövqeyin müəyyənləşməsi də 1932–1945-ci illər mərhələsində meydana çıxır. Ədəbiyyatşünaslıqda məsələyə yanaşmadakı aşağıdakı fikir konseptuallığı ilə diqqəti çəkir: "S. Vurğunun milli-ideoloji baxımdan ən böyük xidməti 30-cu illər kimi mürəkkəb, taleyüklü bir zaman kəsiyində azərbaycançılığı poetik bir məkan tutumundan milli ictimai, ədəbii-bədii şüura çevirməsidir. S. Vurğunun azərbaycançılığı şüar deyildir, elmi əsası və praktik-bədii poetik ifadəsi olan konsepsiya idi" (Alışanlı, 2008, s. 31).

Şairin yaradıcılığında azərbaycançılığın "praktik bədii ifadəsi" ilk növbədə "Azərbaycan" şeiri ilə simvollaşır, daha sonra isə 1934-1935-ci illərin yaradıcılıq məhsulu olan "Azərbaycan" tarixi poeması, "Vaqif" dramı, "Bakının dastanı" poeması və digərləri gəlirdi.

Bu danılmaz bir fakt idi ki, S. Vurğun sözü gedən mərhələdə tarixi mövzuya, mənsub olduğu xalqın keçmişinə müasirləri arasında ən çox müraciət edən sənətkar idi. Həm də təkcə özü müraciət etmirdi, bu ədəbi istiqaməti müasirləri arasında təbliğ edir, onları buna təşviq edirdi. 1932/34–45-ci illərdə tarixi mövzu, xalqının tarixi keçmişini əks etdirmək S. Vurğunun sənət konsepsiyasının ən mühüm tərkib hissəsi olmuşdur. Zamanın ədəbiyyat siyasətində proletkultçuluq düşüncəsindən uzaqlaşmaq halı şairə xalqının tarixinə, ümumiyyətlə, keçmişə münasibətini köklü şəkildə dəyişməyə imkan vermiş, sosialist realizmi – şura ədəbiyyatı mərhələsinə keçiddə sənət konsepsiyasını milli tarixi varlığı inikasa istiqamətləndirməyə imkan vermişdi.

1945-ci ildə qələmə aldığı "Ümumittifaq Yazıçılar İttifaqının X plenumunun yekunları və Azərbaycan ədəbiyyatının gələcək vəzifələri" haqqında məruzəsində ədəbiyyatda tarixi mövzunun, xalqın özünəməxsus keçmişinin ifadə zərurətini milliliyi şərtləndirən vacib amillər sırasında görür, müasirlərini bu cəhəti nəzərə almağa çağırırdı. S. Vurğun deyirdi: "Hər insan, hər şeydən əvvəl, özünəməxsus tradisiyalar və milli xüsusiyyətlərə sahib olan konkret bir xalqın övladıdır... Müasir ədəbiyyat xalq idrakından, xalq mənəviyyatından danışdığı zaman, onun mənəvi keçmişinə böyük bir hörmət və məhəbbətlə yanaşmalı, tariximizin həyat və mübarizə səhifələrini ilham və ürəklə vərəqləməlidir. Tarixə "olub keçmiş şeylər", "çağırılmış bayatılar" kimi baxanlar idrak və zövqü məhdud insanlardır" (Vurğun, 1972, s. 345-346).

S. Vurğun xalqın tarixi keçmişinin bədii ifadəsi üçün sənətkarlarımızın diqqətini xalq ədəbiyyatının zəngin ənənələrinə yönəldir. Folklorumuzda – əfsanə və nağıllarımızda yaşayan tariximizin canlandırılmasını milli sənətkar üçün prioritet vəzifələrdən sayır. Təbii ki, bu tendensiya, eyni zamanda, sənətkar yaradıcılığının xəlqi xarakterini, sənətkarın vətəndaş mövqeyini müəyyənləşdirən əsas amillərdən sayılır: "Xalq əfsanələri, nağılları sahəsində belə, biz əsrimizin qabaqcıl ruhu ilə səslənə bilən əsərlər yaratmalıyıq. Xalq əfsanələrinə soyuq bir nəzərlə baxan yazıçılar unudurlar ki, bütün əfsanələr xalq dühasının məhsuludur. Hər əfsanədə xalqın real həyatı, şüur və zövqləri, onun gələcəyə olan inam və arzuları əks olunmuşdur ki, onların bir çoxu indi də arzu olaraq, həm də yüksəliş arzusu olaraq qalır... Bunu yalnız bacarmaq lazımdır" (Vurğun, 1972, s. 346).

S. Vurğun bunu bacarmışdı. O, xalq əfsanə və nağıl süjetlərində bütöv bir poemalar silsiləsi yaratmışdı: "Qız qayası", "Aslan qayası", "Bulaq əfsanəsi", "Ayın əfsanəsi", "Hürmüz və Əhriman" və s. Tarixi mövzularda da xeyli şeir, poema və dram əsərləri yazmışdır: "Zərdüştün xülyaları", "Şairin ölümü", "Natəvan" şeirləri, "Dar ağacı" poeması, "Vaqif", "Fərhad və Şirin" dramları. Fərqinə varmaq lazım gəlir ki, şair bu əsərlərin hamısını 32/34–45-ci illər arasında yazmışdı. Bu, həmin illərin ədəbi prosesinin hərəkəti üçün ən səciyyəvi bir hal sayıla bilər. S. Vurğunun müasirləri olan sənətkarların yaradıcılığında tarixi və xalq ədəbiyyatı mövzularına müraciətin tarixini araşdırsaq, onların böyük çoxluğunun sözü gedən mərhələdə yazıldığını müşahidə etmək mümkündü r. Bunun əsas səbəbi, M. Hüseynin bir fikrini iqtibas etsək, deyə bilərik ki, sözügedən mərhələdə Azərbaycan ədəbiyyatında "xalqımızın şuurunda həqiqi bir intibah" yaratmaq milli sənətkarlarımız üçün önə çıxarılan məqsədlərdən biri olmuşdur. Ancaq bir cəhəti də xüsusi vurğulamağa ehtiyac var ki, bu istiqamət yaranmış tarixi-siyasi şəraitdən bacarıqla istifadə etməyin nəticəsi kimi meydana çıxmışdır. Cəmi bir il sonra yazdığı "Azərbaycan ədəbiyyatının vəzifələri" adlı yazısında isə oxuyuruq: "Amma bir sıra müvəffəqiyyətlərə baxmayaraq, biz indi görürük ki, ədəbiyyatımızın mühüm nöqsanları da vardır. Bizim yazıçılardan bir çoxu, o cümlədən mən özüm də müasirliyin zərərinə

olaraq, tarixi süjetlərə həddindən artıq meyl etmişik" (Vurğun, 1972, s. 377). Kiçik həcmli bu yazı "Literaturnaya qazeta"da çap olunmuşdur (12 oktyabr 1946-cı il nömrəsində). Yazını ədəbiyyatımız haqqında milli sənətkarın yazıçı tənqidi kimi qiymətləndirmək sadəlövhlük olardı.

Yazının Mərkəzi Komitənin 46-cı ildəki ilk qərarı münasibətilə yazıldığına və Mərkəz qarşısında hesabat xarakteri daşıdığına şübhə etmirik. S.Vurğun Stalin mükafatçısı idi, SSRİ miqyasında tanınmış və qəbul edilmiş Azərbaycan şairi idi. Bir növ Azərbaycan şeirinin bayraqdarı funksiyası daşıyırdı. Yazı "daşıdığı funksiya" ilə bağlı onun Mərkəzə hesabatı idi, "Qərar"dan irəli gələn vəzifələr barədə özünün və təmsil etdiyi milli ədəbi mühitin "Qərar"a verdiyi dəstək, ondan irəli gələn vəzifələri özlərinin fəaliyyət-yaradıcılıq məramnamələrinə çevirəcəkləri ilə bağlı götürülən "öhdəlik" idi. Əsl həqiqətdə S. Vurğun "tarixi süjetlərə həddindən artıq meyl etməsi"ni, eyni zamanda, bunun "müasirliyin zərərinə" olduğunu dilə gətirəndə özü-özünü inkar edirdi, özü-özünü inkara məcbur qalırdı.

S. Vurğun adı çəkilən son məqaləsində davam edirdi: "Ən qocaman Azərbaycan yazıçıları – bir çox tarixi romanların müəllifi olan M. S. Ordubadi, ondan az məşhur olmayan yazıçı Abdulla Şaiq müasirlik barəsində bircə dənə də olsun az-çox əhəmiyyətli əsər yazmamışlar. Mehdi Hüseynin beş pyesindən ən müvəffəqiyyətli olanları Azərbaycan xalqının tarixi keçmişi haqqında yazılmış "Nizami", "Cavanşir" və "Şamil" əsərləridir" (Vurğun, 1972, s. 377). Bunu kim deyir, kim tarixi mövzulu əsərləri tənqid kursu seçir? – Səməd Vurğun. Hansı Səməd Vurğun? O S. Vurğun ki, cəmi bir il qabaq sənətkarlarımızı tarixi mövzularda əsərlər yazmağa təşviq edirdi. O, S. Vurğun ki, cəmi bir il qabaq "tarixə olub keçmiş şeylər", "çağırılmış bayatılar" kimi baxanlar idrak və zövqü məhdud insanlardır" – deyirdi. Bu təzadlı mövqeyin səbəbi nə idi? Cavab birmənalıdır: Zamanın dəyişən siyasəti. 1946–1948-ci il "Qərarlar"ı siyasi rejimin dəyişən, sərtləşən siyasətinin ifadəsi idi.

Rejimin siyasəti S. Vurğunun yaradıcılıq yoluna əsaslı təsir edir, onun ideya-estetik istiqamətini dəyişir.S. Vurğun şeirində öz ideya-estetik istiqaməti ilə 1932–1945-ci illər mərhələsindən əsaslı şəkildə fərqlənən bir mərhələ başlayırdı. Lakin təəssüflə demək lazımdır ki, bu, bütövlükdə götürəndə S. Vurğun şeirinin xeyrinə deyildi.

S.Vurğun və eləcə də dövrün milli ruhlu sənətkarları tarixi mövzulardan, milli-tarixi yaddaş funksiyası oynayan xalq ədəbiyyatı süjetlərindən uzaqlaşmaq məcburiyyətində qalırdılar. Günün mövzuları aktual sayılır və bədii ədəbiyyata gətirilməsi tövsiyyə edilirdi. İlk növbədə istehsalat mövzuları önə keçirdi. Sovet adamının əmək həyatının tərənnümü prioritet mövzu sayılırdı. Lakin bu mövzunun işlənməsində ümumən götürəndə insanın daxili dünyası kənarda qalırdı. İnsan vasitə idi, əsas istehsalat prosesinini təsviri, burda qazanılan əmək xarüqələri idi. Bəzi özünəməxsusluqları ilə bərabər, S.Vurğunun «Muğan» poeması ədəbiyyatda hakim olan bu mövzu istiqamətinin bədii həllini verirdi. «Neftin qüdrəti» şeiri də istehsalat mövzusunun siyasi rejimin tələblərinə uyğunlaşdırılmış romantik ifadəsi idi.

Sosrealizm çevrəsində olan ədəbiyyatda bütün mərhələlər üçün ümumiyyətlə götürəndə beynəlxalq həyat məsələləri iri addımlarla irəliləyən «mövzular» sırasında idi.

Xüsusən kapitalizm dünyasının ictimai eyiblərinin təsviri, bu dünyanı antiinsani mövqedən təsivr, kapital dünyası ilə müqayisədə sosializm cəmiyyətinin üstünlüklərinin önə çıxarılması, sovet cəmiyyətinin humanist xarakterinin tərənnümü səciyəvi hal sayılırdı. Şairin lirikasında yer alan «Təbrizin şairlər məclisinə», «Yandırılan kitablar», «Ana heykəli», «Rəssamın son əsəri», «Körpünün həsrəti» şeirlərində, «Zəncinin arzuları» poemasında beynəlxalq mövzu konteksti və ona yuxarıda göstərdiyimiz istiqamətdə bədii həll vermək tendensiyası əsas idi. Doğrudur, bu əsərlərdə simvolik, şərti metaforik məzmun qatının olmasını da, bu mənada həmin əsərlərdə əks olunan milli tale qatını da görməmək olmaz. Məhz həmin qat indi bu əsərlərin müasirliyini şərtləndirən əlamətdar cəhətlərdir. Ancaq, eyni zamanda, şeirlərdə zamanın siyasi-ideoloji tələblərinin mətn materialının əsasında oturduğunu da inkar etmək olmaz.

Partiya «Qərarları"ndan sonra ədəbiyyatda önə keçən mövzulardan biri kimi siyasi həyatın birbaşa tərənnüm obyekti kimi seçilməsini xüsusi vurğulamaq lazımdır. S.Vurğunun «Leninin kitabı», «Zamanın bayraqdarı» poemalarında hakim partiyanın, onun liderlərinin, xüsusən Leninin tərənnüm obyekti seçilməsi indi birmənalı qarşılanmır. Həqiqətən indi:

Lenin kitabının əməllərilə / Gələcək günlərə salam aparaq-məntiqi heç cür özünü doğrultmur. Sovet rejiminin ideoloji dayağı olan Sov.İKP-nin:

Hər təmiz ürəyin, saf məhəbbətin,
İnsana hörmətin, eşqə hörmətin,
Bugünün, sabahın, əbədiyyətin
Ən böyük mənası – partiyamızdır- (Vurğun, 1961, s. 554)

şəklində tərənnümü təkcə 36-39-cu illərin repressiyalarında yüz minlərlə oğlunu və qızını itirmiş Azərbaycan xalqının milli şüurunda qəbuledilməz olur. Şair haqqında tarixilikdən kənarda yürüdülən mülahizələr də bu mənada narahatlıq doğurur. Ədəbiyyatşünaslığımız bəzən çıxış yolunu bu tip əsərlərin üstündən sükutla keçməkdə görür. Ədəbiyyatşünaslığımızda alternativ varinatlardan çıxış etmək meyli də var. S.Vurğunun ədəbi təcrübəsinin, bədii istedadının cilalandığı, bütün gücü ilə təzahür etdiyi bir zamanda meydana çıxan bu əsərlərin ideoloji və bu gün üçün kifayət qədər qəbuledilməz olan tərəflərini (antihəqiqət tərəflərini) arxa plana atıb, həmin əsərləri sənətkarlıq müstəvisində dəyrələndirmək, milli ədəbi prosesin hərəkətində onlara az qala müstəsna yer ayırmaq tendensiyası da narahatlıq doğurmaya bilməz. Aşağıdakı fikri bu cür təmayülün ümumiləşdirilmiş mövqeyi kimi görür və təqdim edirik: «Dövrün hakim siyasi ideya dəbinin, sosioloji ritualın onlarda bu və ya digər dərəcədə öz əksini, izini tapmasına baxmayaraq, bu əsərlər hamısı («Leninin kitabı», «Muğan», «Aygün», «Zamanın bayraqları» poemaları nəzərdə tutulur – T.S.) həmin illərin fitri istedad, sənətkarlıq səviyyəsinə qalxan poeziya hadisələri, şeirin daha sonrakı möhtəşəm qalasının bürcünə və divarına qoyulan daşlar idi" (Qarayev, 2016, s. 417).

Bu cür qiymətləndirmə elmi baxımdan özünü doğrulda və müasir səslənə bilməz. Birincisi ona görə ki, adları sadalanan poemaları tipoloji cəhətdən eyniləşdirmək olmaz. Nə «Muğan», nə də «Aygün» «Leninin kitabı» və «Zamanın bayraqdarı» ilə eyni tipoloji müstəviyə çıxarıla bilməz. Hətta «Muğan»la «Aygün"ün tipologiyasında ciddi fərqlər var. «Muğan» istehsalat mövzusunda yazılmışdır. Mövzuya sosrealizm stereotipləri ilə həll verilsə də, hadisələrin cərəyanı birbaşa siyasi-ideoloji müstəviyə çıxarılmamışdır. «Aygün»ün isə konteksti tamam fərqlidir və bu barədə bir qədər sonra. «Leninin kitabı» və «Zamanın bayraqdarı» poemalarında amansız bir rejim siyasi-ideoloji müstəvidə humanizm mövqeyindən dəyrələndirilmşidir və bu mənada tərənnüm obyekti haqqında deyilənlərin, indi gün kimi aydın olur ki, həyat həqiqəti ilə, eləcə də milli mənafe ilə heç bir əlaqəsi yoxdur. Bu nöqteyi-nəzərdən «zamanın, günün tozundan yaranan pərdəni, empirik, hərfi qatı onlardakı sözlərin və sətirlərin üstündən silmək, daxildən, içdən gələn saflığı, özünün təmizlədiyi «təzə» mətni yenidən oxumaq lazımdır" (Qarayev, 2016, s. 419) tendensiyası çətin ki, səmərə versin. S.Vurğunun bu tip bəraət aktlarına ehtiyacı yoxdur. Cərəyan edən hadisələri, S. Vurğunun qələmə aldığı hər bir əsəri öz adı, mövzusu, ideya xətti ilə dəyərləndirilmək lazımdır. Ancaq bu dəyərləndirmədə tarixilik prinsipi mütləq nəzərə alınmalıdır. Digər tərəfdən, şairin heç bir əsərini onun sənət yolunun ümumi istiqamətindən, inkişaf tendensiyalarından və ziqzaqlarından ayırmaq olmaz.

S. Vurğun yaradıcılığının əsas mərhələlərində (son iki mərhələdə) iki xətt özünü göstərir. Biri siyasi-ideoloji, o biri isə milli-estetik düşüncə xəttidir. Yaradıcılığının üçüncü mərhələsində, yəni 1932-ci il qərarından 1946-cı il "Qərarları"na qədərki müddətdə siyasi-ideoloji xəttin ən qabarıq nümunəsi kimi "26-lar" poeması diqqəti çəkir. Ancaq danılmaz fakt budur ki, bu mərhələdə S.Vurğun şeirində milli təmayül bütün gücü ilə özünü göstərir. Dördüncü mərhələdə, yəni 1946-cı il "Qərarları"ndan sonra şairin yaradıcılığında siyasi-ideoloji təmayülün önə keçməsi şübhə doğurmur. Bu təmayülün önə çıxmasını şərtləndirən də "Leninin kitabı" və "Zamanın bayraqdarı" poemalarıdır.

Məsələ burasındadır ki, heç proletkultçuluq dövründə S. Vurğun şeiri bütün mənası ilə proletarlaşa bilməmişdir. Bununla belə, S.Vurğun proletkult düşüncəsindən yaradıcılığının son iki mərhələsində də tam uzaqlaşa bilməmişdir. Siyasi-ideoloji məsələlərin bir çox hallarda estetik düşüncəsinin predmetinə çevrilmə faktları da buradan irəli gəlmişdir. "Komsomol" poemasından "Bakının dastanı"na qədər yazdığı əsərlərin əsas ideya xətti və milli məzmunu ilə müqayisədə "26-lar", qismən də "Ölüm kürsüsü" təsvir və tərənnüm obyekti ilə istisnalıq yaradır, başqa sözlə,"yad

notlar" kimi görünür. Bəs bu "yad notlar" necə olur ki, milli-tarixi varlıqla bağlı mövzular şairin estetik düşüncəni büsbütün zəbt etdiyi halda onun yaradıcılığını nüfuz edə bilir? Fikrimizcə, bu "nüfuz"un tarixi-siyasi şəraitdən, S.Vurğunun sənətkar taleyindən keçən siyasi olaylardan kənarda heç bir açılışı yoxdur.

Ədəbiyyatşünaslığımız siyasi olayların sənətkarın taleyində buraxdığı ağır izlərin üstündə dayanmışdır. A.Salmansoy yazır: "1936-1938-ci illər S.Vurğunun da həyatı və yaradıcılığıda çox mürəkkəb, ağrılı və qorxulu illərdən olur: əslində, S.Vurğun da bu illərə H.Cavid, Ə.Cavad, M.Müşfiq və b. sənətkarlar kimi "hazır xalq düşməni" qismində gətirilib çıxarılmşıdı...Bunlardan əlavə S.Vurğun həm özü millətçilikdə ittiham edilir, həm də Yazıçılar İttifaqının katibi kimi "millətçi ünsürlər"i (xüsusilə H.Cavid və M.Müşfiqi) qanadının altına almaqda günahlandırılır. Yazıçılar İttifaqının katibliyindən azad edilir (iyun 1937). (Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədləri əsasında yazılmış kitablarda şairin həmin ildə həbs edildiyi də təsdiqlənir)" (Salmansoy, 2026, s. 13). S.Vurğun "26-lar"ı 1935-ci ildə qələmə almışdı. 35-ci il repressiyanın ərəfəsi idi. Fikrimizcə, "26-lar" repressiya dalğasının sənətkar şəxsiyyətini çıxılmazlığa düçar etməsinin nəticəsi kimi meydana çıxmışdı. Ancaq sonra gələn, ədəbi faktlar bizə başqa bir fikir də təlqin eləyir. "Vaqif" və "Fərhad və Şirin" dramları, "Azərbaycan" tarixi poemasına daxil olan və olmayan tarixi mövzularda və milli folklor yaddaşına söykənən poemaların hamısı "26-lar"dan sonra yazılmışdı. Bu faktın özü S.Vurğunun estetik düşüncəsinin "26-lar"a, yaxud belə deyək, sırf siyasi-ideoloji mövzulara müqavimətini əks etdirmirmi? Əgər nəzərə alsaq ki, həmin əsərlər repressiyanın tüğyan elədiyi və repressiya xofunun davam etdiyi illərdə yazılmşıdır və S.Vurğunun milli şair olmasının pasportuna çevrilmişdir, onda sənətkarın vətəndaş fədakarlığından danışmaq ədəbiyyatşünaslığımızın üzərinə düşən missiya kimi önə çıxarıla bilməzmi?

Bu illərdə siyasi rejim ideoloqları S.Vurğunu "millətçilikdə" ittiham edirdisə, "millətçi ünsürləri" müdafiədə günahlandırırdısa, bu faktlar S.Vurğun şəxsiyyətinin, yaradıcılığının milli məzmununun göstəricisi deyildimi? Bəlkə, bunlar əsli olmayan ittihamlar idi? S.Vurğun həqiqəti (şəxsiyyəti və yaradıcılığı kontekstində) bu "ittihamlar"ın güzgüsündə həqiqi milli şair obrazında görünürdü və bunu danmaq tamamilə perspektivsiz işdir.

Yaradıcılığının son mərhələsində yazdığı "Leninin kitabı", "Zamanın bayraqdarı" kimi poemalarında sərgilənən siyasi-ideoloji mövqe millilik baxımından S.Vurğun yaradıcılığının itgiləri sayıla bilər. Şairə qarşı günü-gündən güclənən siyasi təzyiq və ittihamlar qarşısında şairin geri çəkilmə və güzəşt mövqeyi kimi dəyərləndirilə bilər, lakin təslim aktı kimi mənalana bilməz. Çünki, "Leninin kitabı"ndan sonra "Aygün" poeması gəlir. Deyirlər, dahiləri zaman öz dəyirmanında üyüdə bilmir. Birinci dəfə S.Vurğun rejim dəyirmanının ağzına "26-lar" poeması ilə düşdü. Lakin dəyirmanın sərt daşları (dişləri) onu "üyüdə bilmədi", onu ideoloji konveyrdən keçirib büsbütün özününküləşdirə bilmədi. Çünki "26-lar"dan sonra S.Vurğunun tarixi mövzularda və milli foklor yaddaşına söykənən poemaları yazıldı. Lakin zaman (rejim) S.Vurğunu dəyirman daşından – ideoloji konveyrdən keçirməkdə israrlı idi. İkinci belə hal 1950-ci ildə "Leninin kitabı" ilə baş verdi. Lakin S.Vruğun dəyirmanın boğazından çıxanda onun əlində "Aygün" poeması vardı. "Aygün"ün "Leninin kitabı"na tamamilə əks mövqedən qələmə alındığına iddia etməkdən çəkinmirik.

Rejim bir də təşəbbüs etdi. Zaman S.Vurğunu üçüncü dəfə "Zamanın bayraqdarı" ilə sınağa çəkdi. Rejim öz məqsədinə nail olsaydı, bundan sonra "Zamanın bayraqdarı" tipli əsərlər gəlməli idi. Gəlmədi. Dəyirmanın boğazından dalbadal keçirilmələr şairin sağlamlığına böyük zərbələr vurdu. Amma ruhunu sarsıda bilmədi.

S.Vurğunun son əsərlərinə xüsusən, "Aygün"ə münasibətdə amansız mövqe sərgilənirdi: "Müşahidələr S.Vurğuna qarşı hücumların 1940-cı və 1950-ci illərdə də davam etdiyindən xəbər verir ("Hürmüz və Əhriman" adlı dramatik poemasına, "İnsan" pyesinə, "Aygün" poemasına, "Böyük sənət məsələləri" və "Şairin hüquqları" məqalələrinə və bir sıra başqa əsərlərinə qarşı) və o, yenə də cəzalandırılır – 1952-ci ildə həbsi üçün order yazılır" (Salmansoy, 2026, s. 13). Xüsusən, "Leninin kitabı"ndan sonra S.Vurğunun sənət səhnəsinə "Aygün"lə gəlməsi rejim ideoloqlarını çıldırmaq dərəcəsinə gətirdi. Ədəbiyyatşünaslıq "Aygün"dən sonra S.Vurğuna qarşı yeni bir ideoloji kompaniyanın başlanmasının təfərrüatlarını qeydə almışdır: "1950-ci illərin əvvəllərində S.Vruğuna qarşı hücumların növbəti mərhələsi başlayır: ədəbiyyatşünas M.Quluzadə "Aygün" poeması haqqında

çap etdirdiyi məqalədə (üzərində sifarişlə müəyyən bir qrup işləmişdir) şairin "bolşevik partiyalılığı prinsipindən, sosializm realizmi yolundan geri çəkildiyini" diqqətə çatdırır və onun sovet varlığını "sovet adamlarının simasını təhrif edən müvəffəqiyyətsiz, bədii cəhətdən sönük, zəif bir əsər yaratdığı" qənaətinə gəlir. Bildirir ki, "bu əsər partiyamızın sovet ədəbiyyatı qarşısında qoyduğu məfkurəvi – bədii tələblərə cavab vermir" (Salmansoy, 2026, s. 14). Sosialist realizminin estetikasından uzaqlığı, "məfkurəvi-bədii tələblərə cavab verməməsi" ilə bağlı tənqidin poemanın ünvanına söylədiyi ittihamların hamısı doğru idi. "Leninin kitabı" ilə "Aygün" estetik cəhətdən əks qütblərdə dayanan əsərlər idi. "Aygün" tamam başqa bir estetika ilə yazılmışdı və sosrealizmin tələbləri burada tək-tək fraqmentlər şəklində yer almışdı. "Aygün"ə qarşı hücumları, ittihamları ancaq S.Vurğuna qarşı "hücumlar" və "ittihamlar" şəklində qiymətləndirmək azdır. Bu hücumların, ittihamların əks məntiqi haqqında düşünmək lazım gəlir. Biz, birmənalı şəkildə iddia edirik ki, sosialist realizminin estetik-ideoloji hüdudlarının dağılması, ədəbiyyatın siyasi rejimi təbliğ funksiyasından uzaqlaşmasının bir çox və ciddi tendensiyaları özünü "Aygün"də göstərir.

"Zamanın bayraqdarı"nda-"Aygün"dən sonra yazılan əsərdə sosrealizmə qayıdış prosesləri müşahidə edirik. Bunu gündən-günə artan sonsuz təzyiqlərdən, həbs orderindən yaxa qurtarmaq üçün şairin başı üzərində tutduğu qalxan kimi, özünü repressiyadan qoruma silahı kimi təəvvür edirik.

Nəticə

Düşünmək olar ki, "Zamanın bayraqdarı" S.Vurğunun zamanın dəyirmanında üyüdülməsinin və rejimin öz istəyinə nail olmasının son akkordudur. Axı, "Zamanın bayraqdarı" onun son iri həcmli əsəridir. O da sosrealizmin prinsipləri ilə yazılmış, ideolojiyə ifrat dərəcədə köklənmiş bir əsərdir. Bəli, belə düşünmək olar. Ancaq biz tamamilə fərqli bir düşüncədəyik. "Zamanın bayraqdarı"nda şairin geriyə atılmış addımı, heç şübhəsiz ki, repressiyadan canqurtarmanın növbəti jesti idi, lakin şairin ideoloji konveyrdən keçirilməsinin birmənalı faktı deyildi. Çünki zaman davam edir, S.Vurğun şeiri də irəliyə doğru gedirdi, "ağ bayraq" qaldırmağa həvəsli deyildi. Şairin romantik təbiəti və istedadı, milli varlıqdan güc alan xarakteri ona mübarizənin "bu gün də, yarın da davam edəcəyi"ni israrla diktə edirdi və xəstə şair "Komsomol poeması" üzərində işləyirdi. İndi qarşımızda sovet ədəbiyyatşünaslığının "Azərbaycan komsomolunun kənddə inqilab tərəfindən devrilmiş mülkədar quruluşunun tör-töküntüləri əleyhinə, sinfi düşmənə qarşı tarixi qəhrəmanlıq mübarizəsinə həsr olunmuş" (Azərbaycan sovet ədəbiyyatı tarixi, 1967, s. 306) əsər yox, əllinci illərin ortalarında yaranmış siyasi-ab-havadan güc alan "Komsomol poeması" dayanır. 1961-ci ildə nəşr olunmuş "Əsərləri"nin altı cildliyinin üçüncü cildində "poemalar"ı sırasında 1931-ci ildə yazılmağa başladığı üçün birinci yerdə duran əsəri biz 1956-cı ildə üzərində dönə-dönə işlənməsindən dolayı şairin sonuncu poeması kimi təsəvvür edirik. Biz 1931-ci ildə yazılmağa başlayan əsərlə 56-cı ildə üzərində ardıcıl şəkildə işlədiyi əsəri başqa-başqa ruhlu əsərlər kimi dərk edirik. Çünki zamanlar arasındakı fərq böyük idi, zamanların ədəbiyyat üzərindəki təsirləri tamam başqa idi. "Komsomol"u siyasi yumşalma dövrünün ədəbi hadisəsi hesab etməyə haqqımız var. 1931-35-ci illərdə üzərində dönə-dönə işlədiyi və "Komsomolun 15 illiyinə" qədər tamamlamağa söz verdiyi əsəri tamamlaya bilməməsinin sadəlövh izahlarından qaçmaq lazımdır. Burada şairin əsəri tamamlamaq istəməməsi amilini önə çəkmək, 56-cı ildə bu əsər üzərində işləmək üçün əlverişli siyasi şəraitin yetişməsi haqqında düşündüyünü vurğulamaq istəyirik. "Komsomol poeması"nı yeni keyfiyyət mərhələsinin ilk ədəbi faktlarından sayırıq. "Aygün"ün estetikası yeni keyfiyyət mərhələsinə keçidin ərəfəsini simvollaşdırır. Çünki "Aygün"də istehsalat mövzusuna, "Komsomol"da inqilab uğrunda mübarizə mövzusuna insana humanist və qeyri-humanist münasibət kontekstində bədii həll verilmişdi. Bu münasibət kontekstində istehsalat mövzusu da, inqilab uğrunda mübarizə mövzusu da arxa plana keçirilmişdi. "Aygün"də, "Komsomol poeması" da S.Vurğun yaradıcılığının sosrealizmə müqavimət duyğusundan güc aldığını düşünürük.

Ədəbiyyat

1. Alişanlı, Ş. (2008). XX əsr poeziyasının müasir dərkində ədəbi mif amili. *XX əsr Azərbaycan ədəbiyyatı məsələləri* (II kitab). Elm.
2. Azərbaycan ədəbiyyatı tarixi. On cilddə. VII cild, I hissə. (2024). Elm.
3. Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında ÜİK(b)P MK-nın 23 aprel 1932-ci il qərarı. (1932, 26 aprel). *Kommunist* qəzeti.
4. Əsgərli, Z. (2006). XX əsr Azərbaycan ədəbiyyatı: Qiymətləndirmə və perspektivlər. *XX əsr Azərbaycan ədəbiyyatı məsələləri* (I kitab). Elm.
5. RK(b)P MK-nın partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında 18 iyun 1925-ci il qətnaməsi. (1925). *Maarif işçisi* jurnalı, (4–5).
6. Rzayev, Y. (2010). *Azərbaycan romanı: Siyasət və düşüncə*. Elm.
7. Salmansoy, A. (2026). Kosmopolit tənqidin Səməd Vurğun hədəfi. *Azərbaycan* jurnalı, (3–4).
8. Şura Yazıçılarının Nizamnaməsi. (1934). *İnqilab və mədəniyyət* jurnalı, (5).
9. ÜİK(b)P MK-nın ədəbiyyat və incəsənət haqqında qərarları. (1950). Azərnəşr.
10. Vurğun, S. (1972). *Əsərləri* (Altı cilddə, VI cild). Elm.
11. Vurğun, S. (2005a). *Seçilmiş əsərləri* (Beş cilddə, I cild). Şərq-Qərb.
12. Vurğun, S. (2005b). *Seçilmiş əsərləri* (Beş cilddə, II cild). Şərq-Qərb.
13. Vurğun, S. (2016). *Seçilmiş əsərləri (şeirlər)*. Şərq-Qərb.

Daxil oldu: 21.01.2026
Qəbul edildi: 05.04.2026